Əziz Kərimoğlu

## Vətənimin gözəllikdə yox tayı

Ay ulduzla dayanıbdı yan-yana,
Günü-gündən gözəlləşir Naxçıvan,
Günəş kimi işıq saçır hər yana,
Günü-gündən gözəlləşir Naxçıvan.

Gözəlliyi heyran edir insanı,
Toy büsatdır hər saatı, hər anı,
Bu diyarı tanımayan de hanı,
Günü-gündən gözəlləşir Naxçıvan.

Binaları başdan-başa möcüzə,
Buludlarla dayanıbdı göz-gözə,
Şair könlüm qanad taxıb hər sözə,
Günü-gündən gözəlləşir Naxçıvan.

Mənalıdır burda ilin hər ayı,
Uğurların yox hesabı, yox sayı,
Vətənimin gözəllikdə yox tayı,
Günü-gündən gözəlləşir Naxçıvan.

Zəhmətiylə fəxr eyləyir hər insan,
Əlləriylə torpaq olub gülüstan,
Uzaq deyil bu diyardan şöhrət-şan,
Günü-gündən gözəlləşir Naxçıvan.

Sənətkarlar diyarıdır ölkəmiz,
Keçmişindən bu gününə salıb iz,
İnsanları qonaqpərvər, əvəzsiz,
Günü-gündən gözəlləşir Naxçıvan.

Dik tutubdu çətin gündə başını,
Özü silib gözlərinin yaşını,
Yola salıb payızını, qışını,
Günü-gündən gözəlləşir Naxçıvan.

Müqəddəsdir həm torpağı, həm daşı,
Qayalara həkk olubdu yaddaşı,
Bu torpağı duya bilməz hər naşı,
Günü-gündən gözəlləşir Naxçıvan.

Dədə-Qorqud yurdu olub əzəldən,
Hər qarışı yoğrulubdu qəzəldən,
Ayrılmaram mən belə bir gözəldən,
Günü-gündən gözəlləşir Naxçıvan.

Günü-gündən artır gücü-qüdrəti,
Hər ölkədə vardır xətir-hörməti,
Yer altında, yer üstündə sərvəti,
Günü-gündən gözəlləşir Naxçıvan.

Baş əymədi, nə sultana, nə şaha,
Bir yol saldı üzü nurlu sabaha,
Geri dönməz keçmişinə bir daha,
Günü-gündən gözəlləşir Naxçıvan.

Qırdı polad zəncirləri qolundan,
Ayrılmadı heç zaman haqq yolundan,
Öz nurunu aldı Tanrı nurundan,
Günü-gündən gözəlləşir Naxçıvan.

Gözəlliklər məskənidir bu diyar,
Hər bir kəsin ürəyində yeri var,
Vətənimlə mən duyuram iftixar,
Günü-gündən gözəlləşir Naxçıvan.

## Qarlı qışam

Sən gəldin ömrümün qarlı qışında,
Sən gəldin ömrümə tək çiçək kimi.
Mən yorğun dayandım sənin qarşında
Sən durdun qarşımda bir mələk kimi.

Üzümə baxdıqca qara gözlərin.
Od tutdu alışdı arzum diləyim,
Çəkdi ürəyimdən dara gözlərin,
Ömrümə vədəsiz gələn mələyim.

Sən çiçəkli bahar, mən qarlı qışam,
Yağır saçlarıma, yağır bəyaz qar.
Sən aysan, günəşsən, mən sönən şamam,
Sən tuta bilməzsən könlümdə qərar.

## Qara xətt çəkdin

Bütün həyatımı həsr etdim sənə.
Ömürlük qəlbimə qəm, kədər əkdin,
Sonluğu bitməyən qəm verdin mənə,
Sevgimin üstündən qara xətt çəkdin.

Tənhalıq içində qaldım çarəsiz,
Etdin ürəyimi kül olmuş ocaq.
Uzun gecələri yatmadım sənsiz,
Ruhumu cismimdən eylədin uzaq.

Yalançı sevgidən bezdim, usandım,
Göz yaşı içində ötdü zamanım.
Ayrılıq odunda alışdım, yandım,
Özümü kül etdi, naləm, amanım.

Dedin həmişəlik get unut məni,
Unuda bilmədim səni neyləyim.
Həyatda hamıdan çox sevdim səni,
Sən duya bilmədin məni neyləyim.

Öz şair könlümü bəxş etdim sənə,
Ömürlük qəlbimə qəm, kədər əkdin.
Sən mənim sevgimə oldun biganə,
Adımın üstündən qara xətt çəkdin.

Ədalət.-2021.- 28 yanvar.- S.6.